ABMA

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları

# HESABAT - 2024

«Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur».

**Heydər Əliyev**



«Dövlət idarəetmə islahatları strateji idarəetmə siyasətinə uyğun aparılır».

**İlham Əliyev**



# Məndəricat


01 • Fəaliyyət 04-05

02 • Tədbirlər 06-18

03 • Sayt, sosial şəbəkələr, monitorinq 19-20

04 • Bələdiyyələrin birləşdirilməsi 21-25

05 • Təlimlər 26-27

06 • BAMS 28-30

07 • BOXM 31-32

08 • Sənəd dövriyyəsi 33-36

# Fəaliyyət 01



## ABMA əməkdaşlarının

- təminatı
- nizam-intizamı
- iş keyfiyyəti

## ABMA tərəfindən

- bələdiyyələrlə koordinasiya
- kurasiya sisteminin yenidən qurulması
- hüquqi, texniki və metodiki yardımlar

İnkişaf etdirilmişdir.

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları

# TƏDBİRLƏR 02



Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının (ABMA) və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) nümayəndələri arasında görüş keçirilmişdir

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

| Keçirilmə tarixi | 22 yanvar 2024 |
| --- | --- |

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının (ABMA) təşkilatçılığı ilə “Bələdiyyə mülkiyyətinin tanıdılması sahəsində mövcud problemlər və onların həlli yolları” mövzusunda qarşılıqlı diskusiya və müzakirələr formatında tədbir keçirilmişdir

| | |
|---|---|
| **Keçirilmə tarixi** | **14 mart 2024** |



RMID

Reklam və Marketinq Sahəsinin İnkişafına Dəstək

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları (ABMA) ilə Reklam və Marketinq Sahəsinin İnkişafına Dəstək İctimai Birliyi (RMİD) arasında keçirilmiş görüşdə memorandum imzalanıb



| | |
|---|---|
| **Keçirilmə tarixi** | **15 mart 2024** |

ABMA ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında imzalanacaq memorandumun yenilənməsi, təsdiq edilməsi, gender komissiyalarının yaradılması istiqmətində qarşılıqlı müzakirələr formatında görüş keçirilmişdir



| Keçirilmə tarixi | 01 aprel 2024 |
| --- | --- |

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin və Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən bələdiyyə sədrləri üçün seminar-müşavirələr keçirilmişdir



| | |
|---|---|
| **Keçirilmə tarixi** | **04 aprel 2024** |

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında keçirilən görüşdə PA-nın Ərazi-Təşkilat məsələləri şöbəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının, Bələdiyyələrin Onlayn Xidmət Mərkəzinin məsul əməkdaşları iştirak etmişlər. Görüşdə ABMA-nın Bələdiyyələrin Onlayn Xidmət Mərkəzinin BAMS-da yerləşdirilmiş məlumatlar üzrə slayd görüntülərlə hazırlanmış təqdimatı olmuşdur

| Keçirilmə tarixi | 16 aprel 2024 |
| --- | --- |



Heydər Əliyev Mərkəzində Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC), Heydər Əliyev Mərkəzinin və Regional İnkişaf İctimai Birliyinin təşkilatçılığı, həmçinin “Paşa Holdinq”in baş sponsorluğu ilə VI İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı keçirilib







| | |
|---|---|
| **Keçirilmə tarixi** | **23-26 may 2024** |

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının inzibati binasında “Azərpoçt” MMC-nin rəhbər şəxslərinin və ABMA nümayəndələrinin iştirakı ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində işgüzar tədbir keçirilmişdir

| | |
|---|---|
| **Keçirilmə tarixi** | **27 may 2024** |



Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi ilə Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları Bakı bələdiyyələri ilə birgə “Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, təxliyyə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi zamanı FHN Bakı Regional Mərkəzinin yerli özünüidarəetmə orqanları ilə birgə fəaliyyəti” mövzusunda dəyirmi masa keçirmişdir

| **Keçirilmə tarixi** | **29 may 2024** |
| --- | --- |

ABMA

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları

Kipr Türk Bələdiyyələri Birliyi (KTBB) ilə Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası (AŞBMA) arasında Əməkdaşlıq Protokolu imzalanmış, Protokola əsasən tərəflər Şimali Kipr Türk Respublikası və Azərbaycanın yerli özünüidarəetmə orqanları arasında təhsil, səhiyyə, gənclər və idman, turizm, tarixi və mədəni irsin qorunması, ətraf mühit, enerji, mədəniyyət və incəsənət, infrastruktur, informasiya texnologiyaları, nəqliyyat, texniki və humanitar yardım kimi məsələlərdə əməkdaşlıq etmək məsələləri öz əksini tapmışdır




| | |
|---|---|
| **Keçirilmə tarixi** | **27 sentyabr 2024** |

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 - la bağlı bələdiyyələrlə birgə planlaşdırılmış tədbirlərdə iştirak edilmişdir. Bu məqsədlə bələdiyyələr ilə birgə ağacəkmə və ətraf mühitin təmizlənməsi tədbirləri həyata keçirilmişdir



| | |
|---|---|
| **Keçirilmə tarixi** | **May-noyabr 2024** |

Azərbaycanda keçirilən beynəlxaq mötəbər tədbir COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Bələdiyyələr Birliyinin (TBB) nümayəndə heyəti ilə ABMA-nın inzibati binasında görüş keçirilmişdir



| | |
|---|---|
| **Keçirilmə tarixi** | **19 noyabr 2024** |

# Sayt, sosial şəbəkələr, monitorinq 03



ABMA-nın saytı və digər sosial şəbəkələri işlək vəziyyətdə saxlanılmaqla mütəmadi olaraq zəruri olan informasiyalarla yenilənmişdir. Saytda yerləşdirilmiş materiallar əvvəlcədən araşdırılaraq təhlil edilmiş, məlumatların dəqiqliyinə, informasiyanın yığcamlığına, rəngarəngliyinə, günün tələbləri ilə uzlaşmasına, mətnlərdə səhvlərin olmamasına xüsusi diqqətlə yanaşılmışdır. ABMA-da keçirilən və ya əlaqədar tədbirlərin böyük əksəriyyətinin saytda yerləşdirilməsi təmin edilmişdir. KİV-lərdə bələdiyyələrlə bağlı yerləşdirilmiş informasiyalar hər gün araşdırılıb toplanaraq rəhbərliyə təqdim edilmişdir. İnformasiyaların monitorinqi zamanı əsasən aparıcı saytların paylaşdığı məlumatlara istinad edilmiş, həqiqətə uyğun olmayan, faktlara söykənməyən, reallığı əks etdirməyən paylaşımlardan istifadə edilməməsinə çalışılmışdır.






# BƏLƏDİYYƏLƏRİN BİRLƏŞDİRİLMƏSİ 04



Bələdiyyələrin birləşdirilməsi üzrə aşağıdakı addımlar reallaşdırılmışdır:

- ABMA-nın əməkdaşlarından ibarət bələdiyyələrin birləşdirilməsi üzrə işçi qruplar (10 qrup) yaradılmışdır
- Bələdiyyələrin birləşdirilməsi üzrə beynəlxalq təcrübə araşdırılmış və təhlil edilmişdir
- Şəhər, qəsəbə və kənd bələdiyyələrinin fəaliyyətləri ayrı-ayrılıqda araşdırılmış, həm əhali və ev təsərrüfatı sayları, həm də coğrafi baxımından birləşməsi mümkün olan bələdiyyələrin təhlilləri aparılmışdır
- Birləşdirilmə meyarları üzrə birləşəcək bələdiyyələrin siyahıları hazırlanmışdır
- Aidiyyəti təşkilatlardan daxil olmuş məlumatlar üzrə dəqiqləşdirmələr aparılmışdır

- Birləşdiriləcək bələdiyyələrin rəy və qərarlarının nümunələrının hazırlanmasına dəstək göstərilmişdir
- Bələdiyyələrin birləşdirilməsinə dair qanun layihələrinin hazırlanmasında iştirak edilmişdir
- Fərman layihələri və digər normativ aktların layihələrinin hazırlanmasına dəstək göstərilmişdir
- Birləşdirilməyə dair bütün sənədlər qruplar üzrə təkrar-təkrar yoxlanılmış, aşkarlanan qüsur, səhvlər, çatışmazlıqlar aradan qaldırılmışdır




Birləşdirilmə nəticəsində Naxçıvan MR istisna olmaqla bələdiyyələrin sayı

Şəhər – 68 (0% azalıb)
Qəsəbə - 96 (33.55% azalıb)
Kənd – 477 (62.97% azalıb)
Cəmi – 641 bələdiyyə
olmuşdur

Birləşdirilmə nəticəsində ölkə bələdiyyələrin sayı ümumilikdə 921 vahid, yaxud 57.35% azaldılmışdır

Naxçıvan MR da birləşdirilmə nəticəsində bələdiyyələrin sayı

Şəhər – 6 (0% azalıb)
Qəsəbə - 3 (62.5% azalıb)
Kənd – 35 (77.56% azalıb)
Cəmi – 44 bələdiyyə
olmuşdur

Birləşmədə iştirak etməyən 206 bələdiyyənin 37-si şəhər, 52-si qəsəbə, 117-si isə kənd bələdiyyələridir. Sonuncu birləşdirilmə prosesi Azərbaycanın bütün rayonlarını əhatə etmiş və nəticədə ayrı-ayrı rayonlar üzrə bələdiyyələrin sayı kəskin şəkildə azalaraq 2 – 24 arasında dəyişir. Bələdiyyələrin sayı ən az olan Xızı rayonunda 2 bələdiyyə, ən çox olan Lənkəran rayonunda isə 24 bələdiyyə fəaliyyət göstərəcək.

Qanunvericilikdə edilmiş dəyişiriklərdən sonra 29.01.2025-ci il tarixdə keçiriləcək bələdiyyə seçkiləri zamanı 685 bələdiyyəyə ümumilikdə 8071 bələdiyyə üzvü seçiləcəkdir. Bu isə 2019-cu ildə seçilmiş bələdiyyə üzvlərindən 7004 nəfər, yaxud 46,5 % az bələdiyyə üzvünün seçilməsi deməkdir. Yeni seçilən bələdiyyələr üzrə 65 bələdiyyəyə 9 üzv, 398 bələdiyyəyə 11 üzv, 148 bələdiyyəyə 13 üzv, 48 bələdiyyəyə 15 üzv, 15 bələdiyyəyə 17 üzv, 11 bələdiyyəyə isə 19 üzv seçiləcəkdir.

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları

# TƏLİMLƏR 05



Bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün vergi-uçot sisteminin düzgün təşkili

BAMS proqramının yeni versiyasının tətbiqi və bunlarla bağlı zəruri inteqrasiya proseslərinin reallaşdırılması

Bələdiyyə fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının öyrənilməsi

BAMS proqramına tələb olunan məlumatların düzgün daxil edilməsi

Yerli əhəmiyyətli subvensiya layihələrinin tərtibi və icrası, yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlıq

Kommunikasiya işinin təşkili və digər məsələləri əhatə edən mövzular üzrə

# BAMS 06


Nəzarət sistemi
HESABATLAR
HESABLAMALAR
SİSTEM
TƏRKİB
ARXİV
Bələdiyyələrin Avtomatlaşdırılmış
Məlumat Sistemi

BAMS-ın funksionallığının artırılması istiqamətində aşağıdakı addımlar atılmışdır:

- Vergitutma bazasının daha dəqiq formada müəyyən edilməsi üçün Əmlak Məsələləri Dövlət Xidmətinin elektron kadastr bazası ilə əlavə məlumatların (bina, ev, obyekt və sair) inteqrasiyası aparılmışdır
- Vergi ödəyicilərinin identifikasiyası üçün “Digital Login” servisi ilə inteqrasiya edilmişdir
- Ödəyicilər üçün elektron kabinetin test versiyası yaradılmış, ümumi istifadəyə verilməsi üzərində işlər davam etdirilməkdədir
- BAMS-da kuratorların fəaliyyətinin qiymətləndirilməsinə dəstək məqsədilə yeni funksionallıq qurulmuşdur
- Vergi ödənişlərində YVÖK-lə yanaşı sənəd üzrə ödəmə imkanı HÖP-də sazlanaraq istifadəyə verilmişdir

- E-bələdiyyə portalı üçün “e-bələdiyyə.az” domeni alınmışdır
- VPN serverlərdə optimallaşdırılma işləri aparılmışdır
- Kabinetdən test mühitində istifadə məqsədilə ASAN login və digər güncləndirilmiş e-imzalar qoşulmuşdur
- Ödəyicilər tərəfindən vergi ödəmələrini daha da asanlaşdırmaq məqsədi ilə tədiyə bildirişlərində QR kod əlavə edilmişdir
- Bələdiyyələr tərəfindən torpaqlara rəylərin elektron formada əldə edilməsi məqsədilə test rejimində inteqrasiya işləri davam etdirilir
- Bələdiyyələrin vergi-uçot işinin təkmilləşdirilməsinə dair digər tədbirlər həyata keçirilmişdir

# BOXM 07



**ABMA-nın “Bələdiyyələrin Onlayn Xidmət Mərkəzi” MMC ilə Daşınmaz Əmlakın Kadastrı və Reyestri Publik Hüququ şəxsi arasında həyata keçirilmiş inteqrasiya və bələdiyyələrin vergi-uçot sistemində aparılan optimallaşdırılma işləri nəticəsində 2021-2024-cü illər ölkə üzrə bələdiyyələrin ümumi büdcə gəlirlərinin müqayisəsi**

| Vergi daxilolmaları üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2021 | artım | 2022 | artım | 2023 | artım | 2024 |
| **1-ci rüb** | 3.864.385 | 1.1% | 3.908.229 | 23% | 4.819.142 | 16% | 5.597.231 |
| **2-ci rüb** | 3.700.368 | 20.4% | 4.455.151 | 13% | 5.013.377 | 20.4% | 6.035.057 |
| **3-cü rüb** | 4.349.361 | 16% | 5.044.066 | 15.7% | 5.836.472 | 29% | 7.506.368 |
| **4-cü rüb** | 5.058.410 | 16% | 5.854.526 | 14% | 6.661.219 | 17% | 7.817.276 |
| **İllik** | 16.972.524 | 13% | 19.263.197 | 16% | 22.330.795 | 21% | 26.955.932 |



# SƏNƏD DÖVRİYYƏSİ 08



# Assosiasiyalara daxil olan məktublar

| Göndərən qurum | Məktubların sayı | Faizlə |
|---|---|---|
| Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresindən | 8 | 4.08% |
| Türk Dünyası Bələdiyyələr Birliyindən | 8 | 4.08% |
| Avrasiya Birləşmiş şəhərlər və Yerli Hakimiyyətlərin Beynəlxalq Assosiasiyasından | 3 | 1.53% |
| Birləşmiş Ərəb Əmirliyi İqtisadiyyat Nazirliyindən | 1 | 0.51% |
| Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsindən və rayon icra şöbələrindən | 9 | 4.59% |
| Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzindən | 3 | 1.53% |
| Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən | 1 | 0.51% |
| Dövlət Sosial Müdafiə Fondundan | 1 | 0.51% |
| Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən | 2 | 1.02% |
| "Azərpoçt" MMC-dən | 3 | 1.53% |
| Ölkə bələdiyyələrindən | 26 | 13.26% |
| Vətəndaşlardan və müxtəlif təşkilatlardan | 23 | 11.73% |
| Onlayn daxil olanlar | 108 | 55.12% |
| | 196 | 100% |



# Assosiasiyalardan göndərilən məktublar

| Göndərilən qurum | Məktubların sayı | Faizlə |
|---|---|---|
| Prezident Administrasiyasına | 20 | 37.04% |
| Respublika bələdiyyələrinə | 9 | 16.67% |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə | 1 | 1.85% |
| Azərbaycan Respublikası Minifutbol Federasiyasına | 1 | 1.85% |
| Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə | 1 | 1.85% |
| Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Baş idarəsinə | 1 | 1.85% |
| Dövlət Sosial Müdafiə Fondu | 1 | 1.85% |
| Türk Dünyası Bələdiyyələr Birliyinə | 2 | 3.71% |
| Kipr Türk Bələdiyyələr Birliyinə | 1 | 1.85% |
| Müxtəlif idarə, təşkilat və vətəndaşlara | 17 | 31.48% |
| | 54 | 100% |



## BOXM-a daxil olan məktublar

| Göndərən qurum | Məktubların sayı | Faizlə |
|---|---|---|
| Vergi və ödənişlərin ödənilməsi zamanı ödənişlərin təyinatı üzrə düzgün ödənilməməsi ilə bağlı | 242 | 68.24% |
| Şəxsi hesab vərəqələrində hesabatın düzgün aparılmaması və vergi obyektlərinin daxil edilməsində edilən müəyyən səhvlərin düzəlişi ilə bağlı | 32 | 9.55% |
| Vətəndaşlar tərəfindən səhvən ödənilən artıq ödəmənin geri qaytarılması və geri qaytarılan vəsaitin şəxsi hesabdan silinməsi ilə bağlı | 15 | 4.48% |
| Müvafiq dövlət qurumlarından daxilolmalarla bağlı | 46 | 17.73% |
| | 335 | 100% |



ABMA

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları



# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!